# Ağdam şəhərində yaradılmış Sənaye Parkının məhsulları artıq xaricə ixrac edilir

**2022-ci ildən etibarən uğurla həyata keçirilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ölkəmizin tarixi torpaqlarına həyatın yenidən qaytarılmasını təmin edir. Bu mühüm proqram çərçivəsində bir neçə istiqamət üzrə genişmiqyaslı işlər davam edir: müasir infrastrukturun qurulması, iqtisadiyyatın dirçəldilməsi, sosial həyatın canlandırılması, təhlükəsiz qayıdış. Görülən işlərin bəhrəsidir ki, ötən dörd il ərzində 10 yaşayış məntəqəsinə 10 minə yaxın keçmiş məcburi köçkün yerləşdirilib. Ümumilikdə isə 30 minə yaxın insan işğaldan azad olunmuş ərazilərdə yaşayır, müxtəlif vəzifələrdə çalışır. Yanvarın 7-də yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev 2025-ci ildə Böyük Qayıdış üçün nəzərdə tutulan hədəfləri göstərib. Dövlət başçısı qeyd edib ki, bu il daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş məcburi köçkünləri qaytarmaq nəzərdə tutulub.**

"Biz Qarabağı cənnətə çevirəcəyik" deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə artıq bir neçə ildir ki, Qarabağ və Şərqi Zəngəzurda möhtəşəm layihələr icra olunur. Burada şəhərlər, kəndlər salınır, tunellər, körpülər, elektrik stansiyaları, su anbarları, dəmiryolları inşa edilir. Həmçinin turizmin inkişafı üçün, istirahət kompleksləri, hotellər istifadəyə verilib. Bundan başqa, həmin ərazilər alternativ və bərpaolunan enerji mənbələri ilə də digər regionlardan fərqlənir. Azərbaycan qlobal enerji təhlükəsizliyinin təmin edilməsində, regionda və onun hüdudlarından kənarda milyonlarla insanın təmiz enerjiyə keçidinə kömək etməkdə mühüm rol oynayır. Görülən işlər nəticəsində Qarabağ və Şərqi Zəngəzur 2050-ci ilə qədər sıfır emissiya zonasına çevriləcək. Azad olunmuş ərazilərdə günəş enerjisinin potensialı 4 min meqavatdan artıq, külək enerjisi isə 500 meqavata qədər qiymətləndirilir. 2024-cü ildə işğaldan azad edilmiş ərazilərdə 32 su elektrik stansiyası vasitəsilə 550 milyon kilovat-saat "yaşıl enerji" istehsal edilib. Eyni zamanda azad edilmiş ərazilərdə son 4 ildə 270 meqavat gücündə 30-dan çox su elektrik stansiyası fəaliyyətə başlayıb. Təkcə 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzurda Prezidentin iştirakı ilə 7 su elektrik stansiyası istifadəyə verilib.



Belə tədbirlərdən ən önəmlisi ötən il mayın 19-da baş tutdu. Bu tarixdə Azərbaycan-İran sərhədində, Araz çayı üzərində tikilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız qalası" hidroqovşağının açılış mərasimi keçirildi. Bunun İran-Azərbaycan əlaqələrinin tarixində "gözəl, parlaq səhifə kimi qalacağı" bildirildi. Azərbaycan tərəfi üçün qoyuluş gücü 100 MVt olan "Xudafərin" və 40 MVt olan "Qız qalası" su elektrik stansiyaları və hidroqovşaqlarının istismara verilməsi nəticəsində illik 358 milyon kVt/st elektrik enerjisi istehsalı, mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması təmin ediləcək.

Qeyd edək ki, qarşıda duran hədəflərdən biri də Qarabağ və Şərqi Zəngəzurun yerli və dünya iqtisadiyyatına inteqrasiyasıdır. Bu məqsədlə dövlət başçısının 2021-ci ildəki fərmanlarına əsasən Ağdam və Cəbrayılda Sənaye parkları yaradılıb.

Sənaye parklarında yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin iqtisadi dirçəlişinə, resursların iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək. Artıq Ağdam şəhərində yaradılmış Sənaye Parkının məhsulları xaricə ixrac edilir. Ağdamın Qarabağ regionundakı strateji coğrafi mövqeyi, digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları, potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir. Ağdam Sənaye Parkının yaradılması da məhz bu məqsədə xidmət edir. Ağdam Sənaye Parkı 190 hektar ərazini əhatə edir. Sənaye Parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili müəyyənləşdirilib.






Yanvarın 9-da İqtisadi Zonaların İnkişafı Agentliyi Ağdam Sənaye Parkına mediatur təşkil edib. **Agentliyin mətbuat katibi Elçin Kazımov** açıqlamasında bildirib ki, Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Ağdam Sənaye Parkı qısa müddət ərzində yaradılmasına baxmayaraq, hazırda rezidentlərin sayına görə Sumqayıt Kimya Sənaye Parkından sonra ölkədə ikinci böyük park hesab edilir.

Parkda ümumi investisiyaların həcmi 271 milyon manat olan 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. 33 sahibkarlıq subyekti tərəfindən Sənaye Parkında ümumilikdə, 2400-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bu günədək Sənaye Parkında görülmüş işlərə rezidentlər tərəfindən 97 milyon manata yaxın investisiya yatırılıb, 380 nəfərlik daimi iş yeri yaradılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. Bu müəssisələr elektrik paylayıcı avadanlıqların, elektrik yuvalarının və beton yarımstansiyaların, dam və fasad örtüklərinin, havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatlarının, divar kağızlarının, müxtəlif növ ayaqqabıların, avtomatlaşdırma və telemexanika sistemlərinin, məsaməli hörgü bloklarının istehsalı ilə məşğul olurlar.

Ağdam Sənaye Parkında istehsal edilən məhsullardan işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-quraşdırmada geniş istifadə edilməklə yanaşı, daxili bazarda da satışı həyata keçirilir. Artıq ixrac istiqamətində də uğura imza atılıb. Belə ki, Sənaye Parkında istehsal edilən divar kağızlarının Gürcüstana ixracı həyata keçirilib ki, bu da ölkəmizin divar kağızı istiqamətində ilk ixracıdır. Bundan başqa müəssisə tərəfindən MDB ölkələrinə, Türkiyə, İraq və sair ölkələrə divar kağızlarının ixracı ilə bağlı danışıqlar aparılır.

Həmçinin Sənaye Parkının digər rezidenti tərəfindən istehsal edilən tikinti təyinatlı ayaqqabıların da ixracı istiqamətində Avropa ölkələri ilə danışıqlar aparılır, bu istiqamətdə şirkət tərəfindən artıq sertifikat əldə edilib ki, bu da istehsal etdiyi məhsulu Avropa ölkələrinə ixrac etməyə imkan verir.



Bundan başqa hazırda Ağdam Sənaye Parkının bir çox rezidentləri tərəfindən layihələndirmə işləri həyata keçirilir, 10-na yaxın müəssisədə isə tikinti işləri görülür. Cari ildə Sənaye Parkında tütün məmulatlarının istehsalı müəssisəsinin fəaliyyətə başlaması planlaşdırılır.

Agentliyin mətbuat katibi bildirib ki, ölkəmizdə mövcud sənaye zonaları iş adamlarının investisiya yatırımları baxımından ən əlverişli biznes platformasıdır. Burada sahibkarlıq fəaliyyətinin inkişafı üçün hər cür investisiya imkanları formalaşdırılıb. Belə ki, sənaye zonalarında sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər. Sahibkarlar "Plug and Play" prinsipindən istifadə etməklə sənaye zonalarında öz biznes layihələrini həyata keçirə bilərlər. Bundan başqa sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar. Bir maraqlı məqamı diqqətə çatdırım ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər bu günə qədər 501 milyon manatdan çox, 2024-cü ilin 11 ayında isə 40,68 milyon manat vəsaitə qənaət ediblər.

İşğaldan azad olunmuş ərazilərdəki mövcud sənaye parklarında əlavə güzəştlər də tətbiq edilir. Bunlara xüsusi güzəştli bank kreditləri, sosial sığorta ödənişlərinin subsidiyalaşdırılması, kommunal xidmətlərə 20 faiz endirim, idxal olunan xammal və materiallar üzrə gömrük rüsumları və ƏDV-dən tam azadolma (müəyyən edilmiş siyahısına əsasən) aiddir.

**Musa BAĞIRLI,**
**"Respublika".**